

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 iyul 2023-cü il №56 (2768) https://mod.gov.az Qiymәti 30 qәpik


*Təlim*

## “Təlimdə yüksək bacarıq göstərməyimizə görə komandirlərimizə borcluyuq”

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu prosesinin bu gün ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin hər addımda şahidi oluruq. Ordumuzun bütün bölmələrində yüksək sosial-məişət şəraiti yaradılıb, ən müasir silah və texnikalar alınıb. Dünya standartlarına cavab verən hərbi hissələr tikilib. Hərbi qulluqçuların bütün növ təminatları yüksək səviyyədədir.*



Bunlarla yanaşı, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti də yüksəkdir. Bunların hamısı isə döyüş hazırlığına birbaşa təsir edən əsas amillərdir. Aparılan uğurlu islahatların nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən güclüsüdür. İstər keçirilən irimiqyaslı təlimlərdə, istərsə də Beynəlxalq Hərb Oyunlarında və digər tədbirlərdə hərbçilərimizin ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunu göstərir. Ordumuzun gücü haqqında deyilən sözlərin hamısı İkinci Qarabağ müharibəsində öz təsdiqini tapdı. Qazanılan tarixi Zəfər Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığının, maddi-texniki bazasının yüksək səviyyədə olmasının, şəxsi heyətin peşəkarlığının təsdiqi oldu.

Şəxsi heyətin döyüş hazırlığı ordu rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissələrdə və əlahiddə bölmələrdə şəxsi heyətə döyüş, atəş, taktiki, ictimai-siyasi, fiziki hazırlıqlardan dərslər keçirilir. Nəzəri və praktiki dərslərdə şəxsi heyətə hərbi biliklər və döyüş vərdişləri aşılanır. Həmçinin mütəmadi olaraq keçirilən təlimlərdə şəxsi heyətin döyüş qabiliyyəti yoxlanılır.

"N" hərbi hissəsində olarkən keçirilən təlimdən qeydlər apardım. Plana uyğun olaraq, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan divizionun tədris-maddi bazası, şəxsi heyətin təchizatı, fərdi və qrup halında normativlərin icra səviyyəsi yoxlanıldı. Daha sonra şəxsi heyətə döyüş əmri çatdırıldı və divizion komandirinin komandası altında heyətlər maşınların yanına yığıldı. Bayraq vasitəsilə "İşə sal" komandası verildi və maşınlar hərəkətə başladı. Batareyalar atəş mövqelərini tutaraq müxtəlif təlim-döyüş tapşırıqlarının icrası üçün növbəti komandanı gözlədilər. Şəxsi heyətin çevik hərəkətlərini, bacarığını, müasir və saz vəziyyətdə olan texnikaları izlədikcə Azərbaycan Ordusunun gücünün, qüdrətinin bir daha şahidi olurduq.

Batareyanın baş zabitləri heyət komandirlərinə son tapşırıqlarını çatdırdılar. Onlar da hazırlıq haqqında məruzə etdilər. Növbəti mərhələdə əvvəlcədən hazırlanmış planlı hədəflərə atəş açmaqla tapşırıqlar icra olundu. Bu zaman divizion komandiri tərəfindən atəş mövqeyinin yerdəyişməsi komandası verildi. Bölmələr təyin olunmuş vaxtda öz yerlərini tutdular. Yeni hədəflər aşkar olundu və tapşırıqlar yerinə yetirildi. Həmçinin döyüş maşını komandirlərindən və ixtisasçılardan fərdi normativlər götürüldü. Sonda divizion komandirləri yekun keçirərək bölmələrin döyüş hazırlığını və qarşılıqlı fəaliyyətini yüksək qiymətləndirdilər. "Bölmələrin döyüş vərdişlərinin təkmilləşdirilməsi, eləcə də şəxsi heyətin döyüş qabiliyyətinin və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi məqsədilə Vətən müharibəsində qazanılan təcrübə nəzərə alınmaqla keçirilən təlimdə topçular qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra etdilər. Keçirilən bu təlimlər şəxsi heyətin döyüş qabiliyyətinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. Gənc artilleriyaçılar həm fərdi, həm də komanda şəklində yüksək bacarıq və əzmkarlıq nümayiş etdirdilər", - dedi mayor Amil Hüseynov.

Şəxsi heyətin xidməti haqqında danışarkən zabitin gözlərindəki qüruru görmək olurdu. Onun əziyyəti boşa getməmişdi. Hərbi qulluqçuların hər biri komandirlərindən öyrəndiklərini təlim meydanında layiqincə nümayiş etdirmişdilər. Komandir üçün bundan böyük sevinc ola bilməz. Öz bacarıqları ilə komandirlərinə bu sevinci yaşadan əsgərlərdən bir neçəsinin düşüncələrini öyrəndim.

Heyət üzvlərindən birinə yaxınlaşdım. Əlindəki bayraqlardan top komandiri olduğu bilinirdi. Təlim zamanı da aldığı komandaları şəxsi heyətə bayraq vasitəsilə ötürürdü. Təlim zamanı çevik hərəkətlərindən, verilən tapşırıqları heyətə cəld və dəqiq çatdırmasından nümunəvi və təcrübəli olduğu görünürdü. Çavuş Ümid Məmmədovun fəaliyyəti kimi sözləri də ürəkaçan oldu. Ümid hərbçi olmaqdan, qalib ordunun sıralarında xidmət etməkdən fərəhləndiyini bildirdi. "Müqəddəs və şərəfli peşəmlə hər zaman fəxr edirəm. Formanı geyindiyim gündən vəzifələrimin öhdəsindən layiqincə gəlib nümunəvi olmağı qarşıma məqsəd qoymuşam. Təlimlər bizə həm təcrübə qazandırır, həm də döyüş qabiliyyətimizi artırır. Yaxşı bilirik ki, döyüş meydanında qazanılacaq qələbənin təməli təlimdən başlanır. Hər birimiz vəzifə borclarımızı yaxşı mənimsəmişik və istənilən döyüş tapşırığının icrasına hazırıq", - dedi Ümid Məmmədov.

(Ardı 3-cü səhifədə)



“Qalib ordunun əsgəri olmaqdan qürur hissi keçiririk”

4-cü səhifədə



“Vətən oğulsuz olmasın”

5-ci səhifədə



“Bizi heyrətləndirdiniz!”

7-ci səhifədə



O da qaliblər sırasında olub

8-ci səhifədə

# Azərbaycanın Su-25 təyyarələri Türkiyədə təkmilləşdiriləcək







İyulun 26-da Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının "TUSAŞ" şirkəti arasında "Su-25 modernləşdirmə layihəsi müqaviləsinin imzalanma mərasimi" keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "IDEF-23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində keçirilən imzalanma mərasimində Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov, Türkiyə Müdafiə Sənayesi Komitəsinin sədri cənab Haluk Görgün və digər rəsmilər iştirak edib.

Müqavilənin imzalanmasında əsas məqsəd Azərbaycan Hərbi Hava Qüvvələrinin istifadəsində olan təyyarələrə Türkiyə istehsalı olan ağıllı bomba və raketlərin inteqrasiyası və onların avionik modernləşdirmə fəaliyyətlərinin həyata keçirilməsidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın diqqətdə saxladığı layihədə qardaş ölkənin müdafiə sənayesinin daxili, eləcə də milli imkan və vasitələrindən maksimum istifadə edilməsi nəzərdə tutulub.

# Əlahiddə Ümumqoşun Orduda növbəti ixtisas hazırlığı kursları uğurla başa çatıb





*Əlahiddə Ümumqoşun Orduda gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Mərasimdə çıxış edənlər kurslar zamanı keçirilən dərs və məşğələlərin əhəmiyyətindən danışıb və məzunları təbrik ediblər.

Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini general-mayor Məhəmməd Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən Müharibəsindən sonra da ordu quruculuğunun və onun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi üçün mühüm islahatların aparıldığını diqqətə çatdırıb. Bildirilib ki, ordumuzun peşəkar hərbi qulluqçularla təmin olunması da əsas məsələlərdəndir. Bunun üçün Əlahiddə Ümumqoşun Orduda keçirilən ixtisas hazırlığı kurslarına xüsusi diqqət yetirilir, kursları bitirən gənclərimiz dərs və məşğələlər zamanı qazandıqları təcrübəni, nəzəri və praktiki bilikləri xidmət yerlərində qarşıya qoyulan tapşırıqların icrasında uğurla istifadə edirlər.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemlərini vurduqdan sonra tribuna önündən təntənəli keçid olub.

Sonda xatirə şəkli çəkdirilib.

## Ankara və Bakı beşinci nəsil qırıcı təyyarənin yaradılmasında əməkdaşlıq edəcək

Ankara və Bakı beşinci nəsil "Kaan" türk qırıcı təyyarəsinin yaradılması layihəsi üzrə əməkdaşlıq barədə razılığa gəlib.

AZƏRTAC TRT telekanalına istinadla xəbər verir ki, razılaşma İstanbulda keçiriləcək Beynəlxalq Müdafiə Sənayesi Sərgisi (IDEF-2023) çərçivəsində imzalanması planlaşdırılan ikitərəfli sazişlə rəsmiləşəcək. Layihəyə Ukraynanın da qoşulması gözlənilir.

Bakının layihədə iştirakı Rusiya istehsalı MİQ-29 təyyarələri ilə təchiz olunan Azərbaycan Hərbi Hava Qüvvələrinin modernizə edilməsi istiqamətində mühüm addım kimi qiymətləndirilir.

Hərbi-sənaye kompleksi üzrə ixtisaslaşan "Defence Turk" portalının məlumatına görə, layihəyə Ukrayna da qoşula bilər.

Qeyd edək ki, 2017-ci ildə Türkiyədə Milli Döyüş Təyyarələri proqramı çərçivəsində hazırlanan beşinci nəsil qırıcısı "Kaan" ilk uçuşunu bu il həyata keçirəcək, onun kütləvi istehsalı isə 2028-ci ildə başlayacaq. Qırıcı taktiki-texniki xüsusiyyətlərinə görə ABŞ-ın F-35 təyyarələrini üstələyəcək və gələcəkdə ölkənin Hərbi Hava Qüvvələrində istismarda olan F-16 qırıcılarını əvəz edəcək.

## Hərbi qulluqçularımız Özbəkistanda keçiriləcək təlimdə iştirak edəcək



"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2023-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən, Daşkənd vilayətinin Çirçik poliqonunda "UZAZ-2023 kompüter dəstəkli taktiki komanda-qərargah təlimi" keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun təlimdə iştirak edəcək bir qrup hərbi qulluqçusu Özbəkistanda səfərdədir.

Özbəkistan-Azərbaycan birgə təlimində hərbi qulluqçular xüsusi hərbi əməliyyatların təşkili və aparılması üzrə mövzuları məşq etdirəcəklər.

## Müdafiə Nazirliyinin məlumatı

Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiqi son günlərdə intensivləşib.

İyulun 24-ü Bakı-Füzuli marşrutu üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarının ATR-45 tipli sərnişin təyyarəsinə saat 10:49-dan 11:16-dək, iyulun 25-i Budapeşt-Bakı marşrutu üzrə uçuş yerinə yetirən Çexiya Hava Yollarının C-680 tipli sərnişin təyyarəsinə saat 14:48-dən 15:25-dək və iyulun 27-i Bakı-Qəbələ və əks istiqamətdə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarının ATR-45 tipli sərnişin təyyarəsinə saat 14:08-dən 14:30-dək və saat 15:04-dən 15:26-dək radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranmışdır.

Bu faktlar və əvvəllər baş vermiş eyni hadisələr barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı tərəfimizdən məlumatlandırılıb.

Hava məkanımızdan keçən uçuşların təhlükəsizliyinə ciddi təhdid yaradan bu təxribatlara qarşı Rusiya sülhməramlı kontingenti tərəfindən bu günədək heç bir tədbir görülməyib.

# "Təlimdə yüksək bacarıq göstərməyimizə görə komandirlərimizə borcluyuq"



(Əvvəli 1-ci səhifədə)

Hədəflərin dəqiq nişan alınmasına öhdəsinə böyük məsuliyyət düşdüyünü deyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Emin Zeynalov düşüncələrini belə ifadə etdi:

- Koordinatlara uyğun olaraq, nişangah qurğusunun tənzimlənməsini ən qısa zamanda və düzgün yerinə yetirməliyəm ki, vaxtında atəş açıb hədəfləri məhv edə bilək. Komandirlərimdən mənimsədiyim hərbi bilik və vərdişlərim köməyimə çatır. Sevinirəm ki, tapşırıqları layiqincə yerinə yetirib, xoş sözlər eşidirəm. Bu da əhval-ruhiyyəmə müsbət təsir edir və daha bacarıqlı olmağa can atıram. Çünki durmadan çalışmalıyıq ki, dünyanın ən güclü ordularından olan rəşadətli Azərbaycan Ordusuna layiqli əsgərlər olaq.

Daha sonra heyət nəfərləri - əsgərlər Şəhriyar Bəşirov, Zidan Zeynalov, Elariz İmanov, Rauf Tağıyev və digərləri ilə də həmsöhbət oldum. Hər biri əsgər olmaqdan, Vətəni qorumaqdan qürur duyduqlarını ağızdolusu vurğuladılar. Hərbi hissədə yaradılan sosial-məişət şəraitindən və göstərilən qayğıdan razılıq etdilər. "Hərbi xidmətə gələn gündən ana Vətənimizə olan övladlıq borcunu layiqincə yerinə yetirməyi qarşımıza məqsəd qoymuşuq. Məqsədimizə çatmaq üçün məsuliyyətlə xidmət edirik. Sosial-məişət şəraitinin, təminatlarımızın qaydasında olması nümunəvi xidmətimizə zəmin yaradır. Təlimdə yüksək bacarıq göstərməyimizə görə ən birinci komandirlərimizə borcluyuq. Çünki onlar daim qayğımıza qalır, bilik və bacarıqlarını bizdən əsirgəmirlər. Hər birimizin döyüş vərdişlərini yaxşı mənimsəməsi üçün böyük zəhmət çəkirlər. Təlimdə yaxşı nəticə göstərib, onların etimadını doğrultduğumuz üçün çox sevincliyik. Bizim üçün yaradılan yüksək şəraitə və təminata görə Ali Baş Komandanımıza minnətdarlığımızı bildiririk. Cənab Prezidentimizin bizə olan diqqəti və qayğısı döyüş ruhumuzu daha da artırır", - dedilər əsgərlər.



Dünya hərb tarixinə nəzər saldıqda görərik ki, istər hücum, istərsə də müdafiə döyüşündə artilleriya qoşunlarının atəş dəstəyi müharibənin taleyini həll edən əsas amillərdəndir. Tarix boyu artilleriya imkanlarına malik ordular, möhtəşəmliyi və məğlubedilməzliyi ilə seçilib. İzlədiyimiz təlim də ordumuzda peşəkar artilleriyaçıların olduğunun bir daha təsdiqi oldu. Əminliklə deyə bilərik ki, onlar istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdirlər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin bu il mayın 20-də imzaladığı "Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamına əsasən, ordu sıralarına çağırılan gənc əsgərlərin qəbulu davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Orduda yaradılan nümunəvi xidməti şəraitin nəticəsidir ki, xidmətə yeni başlayan əsgərlərimiz heç bir çətinliklə üzləşmirlər. Hərtərəfli təminata malik hərbi hissələrdə xidmət edəcək gənclər ən çətin döyüş tapşırıqlarını yerinə yetirəcək peşəkar əsgərlər kimi hazırlanırlar.

Müddətli həqiqi hərbi xidmətə çağırılan gənclər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndəsi tərəfindən hərbi hissəyə təhvil verilir. Gənclər sevinc, həyəcan, qürur hissləri ilə hərbi hissəyə ilk addımlarını atırlar.

Çağırışçılar ilk olaraq müasir avadanlıqlarla təchiz olunan hərbi xəstəxanada müayinə olunur. Rentgen aparatı ilə gənc əsgərlərin ağciyərləri və daxili orqanları yoxlanılır. Əsgərlər stomatoloq, cərrah, terapevt və digər sahələr üzrə müayinə olunduqdan sonra tibb kitabçalarında müvafiq qeydlər aparılır.



Qeyd edək ki, ilkin müayinə ilə yanaşı hərbi tibbi müəssisədə və hərbi hissənin tibb məntəqəsində şəxsi heyətin vaxtaşırı tibbi müayinəsi aparılır, gənclərin səhhəti daim diqqətdə saxlanılır və onlara xəstəlik törədən viruslardan qorunmağın yolları haqqında mütəmadi olaraq məlumat verilir.

Həkim komissiyası tərəfindən ümumi şəkildə yoxlanan çağırışçıların növbəti mərhələdə qeydiyyatı və bölgüsü aparılır. Onlar şəxsi heyətin uçotu bölməsinə təqdim olunaraq adlı siyahılar əsasında yoxlanılır.

Sonra gənc əsgərlər əşya anbarına göndərilir. Burada onlar hərbi geyim və digər şəxsi əşyalarla təmin olunduqdan sonra xidmət edəcəkləri bölmələrə təhvil verilir.

Gənclər Hərbi Andı qəbul edənə kimi ilkin hazırlıq mərhələsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq məşğələlər keçirilir. Məşğələ rəhbərləri tərəfindən şəxsi heyətə sıra hazırlığının fənd və elementləri öyrədilir, gənc əsgərlərə hərbi intizam



qaydaları aşılanır, onların sıra vərdişləri formalaşdırılır və təkmilləşdirilir.

Günün nizam qaydasının əsas hissələrindən biri də fiziki hazırlıq saatlarıdır. İdman şəhərciklərində döyüş hazırlığının tərkib hissəsi kimi şəxsi heyətlə fiziki hazırlıq üzrə dərslər keçirilir. Şəxsi heyət müxtəlif idman qurğuları vasitəsilə fiziki dözümlülüklərini artırır.

Əlahiddə Ümumqoşun Ordunun digər hərbi hissələri kimi burada da əsgərlərin şəxsi gigiyena qaydalarına əməl etmələrinə və sağlamlıqlarının qorunmasına ciddi fikir verilir. Bunun üçün hərbi hissənin hamam və camaşırxanasında lazımi şərait yaradılıb. Camaşırxanada müasir paltaryuyan, quruducu maşınlar və yataq örtüklərinin ütülənməsi üçün qurğular mövcuddur. Şəxsi heyət həftə ərzində təmiz paltar və yataq örtükləri ilə təmin edilir.

Şəxsi heyətin sağlamlığının qorunması üçün düzgün qidalanma da əsas şərtlərdən biridir. Hərbi hissənin yeməkxanasında peşəkar qadın aşpazlar tərəfindən bol enerjili və ekoloji cəhətdən təmiz yeməklər hazırlanır.

Şəxsi heyətin gündəlik təzə və yüksək kalorili ərzaqla təmin olunması üçün ərzaq anbarlarında lazım olan ehtiyat yaradılıb. Burada müasir tələblərə cavab verən soyuducu və dondurucu kameralar yerləşdirilib. Bu kameralarda ət, balıq, meyvə-tərəvəz və digər ərzaq ehtiyatı saxlanılır.

Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, hərbi hissədə yaradılan yüksək məişət şəraiti onların xidmətlərini uğurla keçməsinə zəmin yaradır. Hərbi hissənin yataqxanalarında da əsgərlərin məişət şəraiti üçün müasir infrastruktur yaradılıb, yataq otaqları lazımi avadanlıqlarla təchiz olunub. Belə şərait xidmətə yeni başlayan gənclərin gələcəkdə bacarıqlı əsgərlər kimi formalaşmasında xüsusi əhəmiyyət kəsb edir.

Günün nizam qaydalarına uyğun olaraq əsgərlərin asudə vaxtını səmərəli keçirməsi də diqqət yetirilən əsas məsələlərdəndir. Bunun üçün hərbi hissənin əsgər yataqxanalarında ideoloji, tədris, məişət və istirahət otaqları əsgərlərin istifadəsinə verilib. Burada ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən kitablar, bədii ədəbiyyatlar, stendlər, qəzet və jurnallar qoyulub. Həmçinin əsgərlər müxtəlif stolüstü oyunlar oynamaq və televizora baxmaq imkanı da əldə edirlər.



Xidmətə yeni başlayan gənc əsgərlər Hərbi Andı qəbul etdikdən sonra öz ixtisası üzrə məşğələ və dərslərdə, praktiki atış çalışmalarında iştirak edəcək və digər ümumqoşun biliklərini mənimsəyəcəklər. Gənc əsgər hazırlığı dövründə ixtisaslarına uyğun hərbi bilik və bacarıqlara tam yiyələnən əsgərlərimiz xidmətlərini davam etdirmək üçün digər hərbi hissələrə göndəriləcəklər.

Gənclərdə vətənpərvərlik hissinin formalaşmasında, onların cəmiyyətə yararlı şəxsiyyət kimi hazırlanmasında və digər mənəvi keyfiyyətlərə yiyələnməsində əsgəri xidmətin rolu böyükdür. İnanırıq ki, bu gənc əsgərlərimiz də komandirlərinin öyrətdiyi bilik və bacarıqları dərindən mənimsəyib, döyüş hazırlıqlarını və fiziki dözümlülüklərini daim artıraraq ərazi bütövlüyümüzün keşiyində inamla dayanacaq və ən əsası da qalib ordunun əsgərləri kimi üzərlərinə düşən şərəfli vəzifəni layiqincə yerinə yetirəcəklər.

*Gənc əsgərlərin hazırlığı*

# “Qalib ordunun əsgəri olmaqdan qürur hissi keçiririk”



Xalqın qürur mənbəyi onun qüdrətli ordusudur. Güclü ordunun formalaşması üçün onun savadlı və yüksək döyüş ruhuna malik əsgərə, müasir standartlar çərçivəsində qurulan maddi-texniki təminat və təchizata malik olması vacib şərtdir. Hər bir ordunun döyüşaparma və özünümüdafiə qabiliyyətinin yüksək səviyyədə saxlanılması üçün hərbi xidmətə yeni cəlb olunan əsgərlərin ilkin hərbi hazırlığını lazımi səviyyədə təşkil etməsi də çox mühüm amillərdən biridir. Belə ki, ordu sıralarına yeni gələn gənc Vətən müdafiəçiləri nəzəri və praktiki hərbi bilikləri mənimsəyərək xidmətinin sonrakı müddətini tələb olunan səviyyədə davam edə bilirlər. Sadalanan şərtlərin və amillərin təmin olunması yönündə Azərbaycan Ordusunda mühüm tədbirlər və fəaliyyətlər planı uğurla icra edilir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, 2023-cü il iyulun 1-dən 31-dək gənc əsgərlərin müddətli həqiqi hərbi xidmətə çağrılması başladı. Ordu sıralarına yeni cəlb olunan gənclərin olunduğu prosesi ilə tanış olmaq üçün "N" hərbi hissəsində olduq. Hərbi hissənin nəzarət buraxılış məntəqəsində sıxlıq və hərəkətlilik var idi. Vətənə vətəndaşlıq borcunu yerinə yetirmək üçün gələn gənclərimizin hər birinin həyəcanlı və bir o qədər də qürurlu olduğu sezilirdi. Həyəcan hərbi mundiri ilk dəfə daşımağın verdiyi məsuliyyət hissindən, qürur isə qüdrətli ordunun tərkib hissəsi olmaqdan irəli gəlirdi.

Hərbi hissənin zabiti mayor Ceyhun Sadiyev gənclərimizin qəbulu ilə bağlı bizi məlumatlandırdı. "Ordu sıralarına yeni qədəm qoyan gənclərimiz bu gün ömrünün ən yaddaqalan günlərindən birini yaşayır. Buna görə də hər bir gənc üçün hərbi xidmətin önəmi böyükdür. Çünki Vətən sevgisinin nə olduğunu burada, hərbi xidmət müddətində daha dərindən anlayırsan. Hərbi xidmət keçən hər kəs həm mənəvi, həm də fiziki olaraq möhkəmlik qazanır, müxtəlif şəraitə uyğunlaşmaq kimi üstün keyfiyyətləri mənimsəyir. Belə olan təqdirdə də, əminliklə deyə bilərik ki, hər bir Azərbaycan gəncinin ordusuna, xalqına və Ali Baş Komandanına layiq fərd olaraq formalaşmasında hərbi xidmətin rolu danılmazdır".

Çağırışçıların qeydiyyat və uçotu fəaliyyətləri ilə bağlı danışan zabit, prosesi belə izah etdi: "Gənc əsgərlər qeydiyyatda olduğu rayon üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri tərəfindən hərbi hissəmizə gətirilir. Gələnlər siyahılara əsasən yoxlanılır, say tərkibi haqqında məlumat qeyd olunur, daha sonra sənədlər və məlumatların doğruluğu gözdən keçirilir və qeydiyyatı aparıldıqdan sonra təlimata uyğun olaraq növbəti fəaliyyətlər icra olunur. Növbəti məntəqədə gənc çağırışçılar tibb məntəqəsində müvafiq yoxlamalardan keçirlər. Daha sonra normalara uyğun əşya və əmlakla təmin olunduqdan sonra təyin olunduqları bölmələr üzrə xidmətə başlayırlar".

Hərbi xidmətə yeni qədəm qoyan əsgərlərin qeydiyyatını aparan gizir Anar Bənnayevlə söhbətləşdik. "Gənc çağırışçılar adlı siyahıya uyğun olaraq şəxsi heyətin uçotu bölməsinə təqdim edilir. Hərbi biletlə, sənəddəki zəruri məlumatlar tutuşdurulub, dəqiqləşdirilir. Sonra hər bir əsgərin təyin olunduğu ixtisas və bölmə təsdiqlənir. Gənc çağırışçılarla fərdi söhbət aparılır, psixoloji testlər keçirilir. Psixoloji təsnifatlar aparıldıqdan sonra əsgərlər öz rəhbərlərinin müşaiyəti ilə növbəti məntəqəyə doğru istiqamət alırlar".

Növbəti həmsöhbətim ideoloji iş və mənəvi-psixoloji təminat bölməsinin zabiti kapitan Rəşad Bağırzadə oldu. Zabit əsgərlərin döyüş ruhunun təməlində yüksək mənəvi-psixoloji hazırlığın olduğunu qeyd edərək söhbətə başladı. "Gənc Vətən müdafiəçilərinin keçdikləri xidmət mühitinə uyğun fəaliyyətini təşkil etməsi, psixoloji möhkəmliyinin nəzarətdə saxlanılması məqsədilə hərbi hissənin psixoloqları tərəfindən müxtəlif fəaliyyətlər təşkil olunur. Onlarla qrup və fərdi qaydada söhbətlər aparılır. Bu gün xidmətə yeni çağırılanlarla tanışlıq söhbəti aparılır, ilkin təəssüratla bağlı müəyyən qeydlər götürülür. Sonrakı zamanlarda da fəaliyyət mütəmadi olaraq təşkil olunur. Həmçinin, yaradılan şərait də əsgərin mənəvi-psixoloji hazırlığına təsir edən amillərdəndir. Belə ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına onun qidalanması və gündəlik fəaliyyətinin lazımi səviyyədə təşkil edilməsi üçün yaradılan şərait də təsir edir. Əsgərlər hərbi xidmət keçdikləri dövrdə milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə keçirilən dərs, tədbir və ekskursiyalarda iştirak edir ki, bu da şəxsi heyətin milli-mənəvi dəyərlərə sədaqət ruhunda formalaşmasında əsas istiqamətlərdəndir. Bundan başqa, insan psixologiyasının təməlini təşkil edən əsas prinsiplərdən biri də sağlamlıqdır. Xidmət müddətində şəxsi heyətin qidalanması yüksək kalorili ərzaqlardan ibarət olur. Onların istənilən iqlim və hava şəraitində fəaliyyətini fasiləsiz, operativ və yüksək səviyyədə təşkil etməsi üçün hər şey düşünülüb. Hər növ təminatı qaydasında olan əsgərin əsas vəzifəsi Vətəninə layiq əsgər və valideynlərinə layiq övlad kimi üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməkdir".

Daha sonra hərbi hissənin tibb məntəqəsində gedən proseslə tanış olduq. Müasir tibbi avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsində tibbi qəbul komissiyasının fəaliyyətində iştirak etdik. Tibb xidməti mayoru Həsən Səlimzadə bizi burada görülən işlərlə tanış etdi. "Çağırış müddətində ordu sıralarına yeni çağırılan əsgərlərin sağlamlığını nəzarətdə saxlamaq üçün buradayıq. Komissiyanın tərkibində həm hərbi hissənin, həm də, müxtəlif hərbi hissələrdən ezam olunmuş tibb personalın nümayəndələri var. Xidmətə başlamazdan əvvəl hər bir əsgər müayinə olunur. Tibbi qəbul komissiyasına gələn gənc əsgərlər ilk olaraq, boy və çəki ölçmə cihazlarından keçirlər. Onlar üçün açılan ilkin tibbi kitabçada gənc çağırışçı haqqında zəruri məlumatlar qeyd olunur. Daha sonra rentgen aparatından keçən əsgərlər ümumi yoxlamaları da başa vurduqdan sonra sağlamlıq haqqında qeydlər tibb kitabçasında yazılır. Müasir tibbi avadanlıqlarla yoxlamalardan keçən gənc əsgərlər haqqında həkimlər tərəfindən rəy tərtib olunur. Əgər əsgərin sağlamlığı ilə bağlı hər hansı şikayəti varsa, şikayət qeydə alınır və əsgər yoxlamadan keçir. Yoxlamanın nəticəsinə uyğun olaraq, müalicə və yaxud digər zəruri təxirəsalınmaz tədbirlər görülür".



Tibb xidməti kapitanı Rafael Kərimov da tibbi qəbul komissiyasının işi ilə bağlı öz əlavələrini etdi. "Düzgün, operativ hərbi xidmətin təşkili üçün sağlamlıq vacib faktordur. Biz də öz növbəmizdə gənc çağırışçıların səhhətini daim nəzarətdə saxlayırıq. Xəstəlikdən və virusdan qorunmaq və bunun üçün görülməli olan qabaqlayıcı tədbirlər haqqında onlarla maarifləndirici söhbətlər aparılır. Rentgen yoxlamasını başa vurduqdan sonra gənc əsgərlər müvafiq olaraq terapevt, cərrah, psixiatr, stomatoloq, nevroloq və digər həkim müayinələrindən keçirlər".





Tibbi qəbul komissiyasını keçdikdən sonra çağırışçılar əşya anbarına göndərilirlər. Əşya və əmlakın qəbulunda baş leytenant Etibar Hüseynovla həmsöhbət olduq. "Çağırışçılar tibbi müayinəni keçdikdən sonra burada təzə geyimlər, əl-üz və ayaq dəsmalları, yataq ağları və döşək üzləri və ən əsası hərbi geyim forması (yay səhra kostyumu, bel kəməri, yazlıq uzunboğaz çəkmə) və digər əşyalarla normaya uyğun tam təmin olunurlar".

Hərbi xidmətə ilk qədəmlərini qoyan çağırışçılar burada formalarını götürdükdən sonra bölmələrinə yola düşürlər. Əsgər yataqxanasında gizir Alqayıt Əyyubli çağırışçıları bölmədəki inzibati otaqlarla tanış etdi. O, bizimlə söhbəti əsnasında bildirdi ki, burada yüksək standartlar çərçivəsində qurulmuş əsgər yataqxanası, sanitar qovşağı, duş kabinələri, istirahət, sinif və digər xidməti otaqlar mövcuddur. O, həmçinin bildirdi ki, ideoloji, xidməti, tədris, məişət otaqları şəxsi heyətin gündəlik xidmətini yüksək səviyyədə təşkil etmək üçün yaradılıb. Şəxsi heyətin keçəcəyi dərs və məşğələlərdən danışan gizir Alqayıt Əyyubli qarşıdakı müddətdə əsgərlərin hazırlığı ilə bağlı da bizi məlumatlandırdı. "Bölməmizin komandir heyətinin və bizim keçdiyimiz dərslər nəticəsində çağırışçılarımız təcrübəli döyüşçü kimi formalaşacaq, Vətən müdafiəsində qürurla dayanacaqlar".

Günün nizam qaydalarına uyğun olaraq, növbəti günlərdə gənc çağırışçıların sıra hazırlığının ilkin elementinin öyrənilməsi məqsədilə keçirilən dərsdə iştirak etdik. Gizir Alqayıt Əyyubli gənc əsgərlərə sıranın müqəddəsliyindən və sıra hazırlığının vacibliyindən danışdı. "Hərbi intizam sıradan başlayır. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq, keçirilən sıra hazırlığı dərsi zamanı şəxsi heyət sıra hərəkətləri və yerişi, əsgəri salamlaşma qaydalarını və digər zəruri elementləri mənimsəyirlər. Təbii ki, hər bir əsgərin həyatında ən yaddaqalan günlərdən biri Hərbi Andı qəbul etdiyi gündür. Bu günün də yaddaqalan olması üçün hər bir əsgər sıra hazırlığı dərsində əlindən gələnin yaxşısını etməyə çalışır". Gənc əsgərlərin qısa müddət ərzində sıra bacarıqlarını və vərdişlərini dərindən mənimsəməsi həm əsgərlərimizin hərb sahəsinə olan marağından, həm də komandir heyətinin öz işinə məsuliyyətlə yanaşmasından xəbər verirdi. Bir sözlə, iştirak etdiyimiz dərs yüksək təəssüratlarla yadda qaldı.

Sonda gənc əsgərlərdən Şahkərəm Nadirov, Rəsul Qasımov, Toğrul Quluzadə, İlham Quluzadənin fikirlərini qələmə aldıq. Hərbi xidmətin onlar üçün nə ifadə etdiyini soruşanda hər birinin müqəddəs vəzifə deyə cavab verməsi ruhumuza sığal çəkdi. Gənc əsgərlərimizin sonda bir ağızdan "qalib ordunun əsgəri olmaqdan qürur hissi keçiririk" söyləmələri bugünkü Azərbaycan əsgərinin qalib ordunun adına layiq xidmətini bundan sonra da davam etdirəcəyinə olan inamımızı daha da artırır.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu" fotolar**
**Coşqun CƏFƏROVUNDUR**



### Tarix yazan oğullar

# "Vətən oğulsuz olmasın"

Bu günlərdə Naxçıvanda Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin nəşr etdirdiyi "Vətən oğulsuz olmasın" kitabının təqdimat mərasimi keçirildi. Kitabda xalq şairi Mirvarid Dilbazinin Ulu Öndər Heydər Əliyevə həsr etdiyi şeirləri toplanıb. Müdrik insan, böyük dövlət adamı Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrü nəzmə çəkən Mirvarid xanım yazırdı:

*Bizim yolumuz çətin,*
*İradəmiz sarsılmaz,*
*İnamımız da birdir*
*Bu yol ağır savaşlı*
*Bizim bu günümüzdən*
*Aydın sabaha gedir.*
*Qanı doğma qanımız,*
*Milli qəhrəmanımız!*
*Xalqımızın ər oğlu!*
*Millətə rəhbər oğlu!*

Millətin rəhbər oğluna güvənərək ölkəsini aydın sabahlara çıxacağını poetik dillə gələcək nəsillərə çatdıran Mirvarid Dilbazi yaradıcılığı millilik, vətənpərvərlik ruhundadır. Ta keçmiş dövrlərdən milli ruhun qoruyucusu və daşıyıcısı olan ədəbiyyat, vətənpərvər gəncliyin yetişməsinə də töhfə verib. Tədbirdə iştirak edən şəhid anaları da "Oğul düşmən çəpəridir, vətən oğulsuz olmasın" dedilər. Bakıdan Naxçıvana qonaq gələn Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin üzvlərinə şəhid Xansu Qurbanovun anası Yəmən Abbasova evinin qapılarını açdı. Böyük ürəkli ana, qəhrəman oğul yetişdirən Azərbaycan qadını öz qonaqpərvərliyini sərgilədi. Qonaqlarla birgə şəhid Xansu Qurbanovun ocağında olduq. Şəhidimizin anası Yəmən xanıma dövlətimiz tərəfindən verilən iki otaqlı mənzil Xansunun şəkilləri ilə bəzədilib. Hansı tərəfə dönsən, igidin baxışları ilə qarşılaşırsan. Qurbanovlar ailəsinin yeganə oğul övladı olan Xansunun yoxluğuna bacıları hələ də inanmır. 3 övladını təkbaşına böyüdən Yəmən ana var gücünü Xansunun xatirəsini yaşatmağa həsr edir.

Xansu Qurbanov 23 sentyabr 2000-ci ildə Naxçıvan şəhərində anadan olub. İlk təhsilinə 15 nömrəli tam orta məktəbdə başlayıb. Məktəb Milli Qəhrəman Mirəsgər Seyidovun adını daşıyır. M.Seyidov birinci Qarabağ müharibəsinin cəsur döyüşçülərindən olub. Xansu onu özünə örnək seçmişdi. Vətənin əsgəri olacaq, döyüş yolunu davam etdirəcəkdi. Məktəbi bitirəndən sonra Xansu Qurbanov hərbi xidmətə yollanır. Xidməti dövründə qərarını qətiləşdirir: Hərbçi olacaq, Vətənin keşiyində duracaqdı. Beləliklə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi arzusunu reallaşdırır. Təlimlərdə iştirak edir, bilik və bacarıqlarını artırır.

27 sentyabrda başlayan müharibəyə qatılmaq üçün Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları ruh yüksəkliyi ilə səfərbər olurlar. İlk yollanan dəstənin tərkibində Xansu Qurbanov da vardı. Döyüş yolu Füzulidən, Xocavənddən, Tuğ kəndindən, Qırmızı bazardan keçir. Sonuncu dayanacaq Şuşa olur. Heç görmədiyi, amma uşaqlıqdan xəyal etdiyi Qarabağın tacı - Şuşa. Son ana qədər döyüşən Xansu düşmən gülləsinə tuş gəlir, müqəddəs torpaqda müqəddəs məqama ucalır. Anası Yəmən xanım deyir ki, Tuğ kəndində döyüş yoldaşlarının mühasirəyə düşməsinin qarşısının alınmasında fəal iştirak edib. Füzulidən Şuşayacan döyüşüb. Üzərinə düşən vəzifəni şərəflə yerinə yetirib. Canını fəda edib. Hər



ananın arzusu olur. Mən onu həkim kimi görmək istəyirdim, lakin o, qəhrəman olmağı seçdi. Torpağın yaralarını sardı. Nəyə görə Şuşanı müqəddəs hesab edirik?! Çünki o torpağa Xansu kimi gənclərin qanı axıb. Dövlət başçısı İlham Əliyev bu şəhəri həm də bizim cəsarətimizin rəmzi adlandırmışdır.Təsəllim budur ki, Xansu sevərək seçdiyi peşənin ən ali məqamına yüksəldi. Tutduğu yoldan geri çəkilmədi, cəsarət göstərdi, hünər göstərdi.

Xansu Qurbanov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Yəmən ana ilə və qonaqlarla sağollaşıb ayrılırıq. Qapısı hər kəsin üzünə açıq olan Yəmən ana xatirimdə həmişə belə qalacaq: mehriban, qonaqpərvər, dəyanətli və ən əsası igid Xansunun anası...

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının**
**baş redaktoru**

# Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən ukraynalı Oleq Babakın Poltavada yaşayan ailəsinə yardım göstərilib






*Azərbaycan dövləti irqindən, milliyyətindən asılı olmayaraq, Vətənimizin bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçənlərin hər birinin xatirəsini əziz tutur, ailələrinə yardımlarını davam etdirir. Belə qəhrəmanlardan biri də 1991-ci ildə Qubadlı rayonunda mülki vətəndaşlarımızı erməni silahlılarından qoruyarkən həlak olan ukraynalı Oleq Babakdır.*

AZƏRTAC xəbər verir ki, Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində Sovet İttifaqı Qəhrəmanı, Qubadlı rayonunda ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi növbəti dəfə anılıb. Azərbaycan Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesi Əziz Nuriyev Oleq Babakın Poltavada yaşayan valideynlərinə baş çəkib və yardım göstərib.

Əziz Nuriyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, dövlətimiz Oleq Babakın ailəsinə daim qayğı göstərir.

"Buraya gəlməyimizin məqsədi bir daha Azərbaycan dövlətinin dəstəyini, yardımını sizə çatdırmaqdır. Artıq Oleq Babakın ruhu da şaddır, çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuz işğal altındakı torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. İndi həmin ərazilərdə yenidənqurma və bərpa işləri aparılır", - deyə Ə.Nuriyev əlavə edib.

O.Babakın anası Nadiya Babak AZƏRTAC-a açıqlamasında onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. "Azərbaycan dövləti bizə hər zaman yardım edir. Bu, bizə yaxşı yaşamağa kömək edir. Bizi unutmadığı üçün Azərbaycan dövlətinə təşəkkür edirəm", - deyə Nadiya Babak bildirib.

Sonra Oleq Babakın məzarı ziyarət olunub, üzərinə tər çiçəklər düzülüb və onun xatirəsi ehtiramla yad edilib.

Qeyd edək ki, Oleq Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində doğulub. SSRİ-nin Daxili İşlər Nazirliyinin Daxili qoşunlarının xüsusi təyinatlı 21-ci briqadasında siyasi hazırlıq üzrə bölük komandirinin müavini vəzifəsində xidmət edən Oleq Babak 1991-ci ilin mart ayından Azərbaycanın Qubadlı rayonunda ictimai asayişin qorunması tapşırıqlarını yerinə yetirib. 1991-ci il aprelin 7-də Qubadlının Yuxarı Cibikli kəndində yerli sakinlərin ermənilər tərəfindən öldürülməsi xəbəri yayılandan sonra 24 yaşlı Oleq Babak SSRİ Daxili İşlər Nazirliyinin 21-ci briqadasının tərkibində hadisə yerinə göndərilir. Burada yerli kənd camaatı ilə birgə təxminən 70 nəfər erməni silahlısının mühasirəsinə düşür.



Ermənilərin yerli sakinləri təhvil verib geri çəkilmək tələbinə məhəl qoymayan 24 yaşlı ukraynalı leytenant bir nəfər də azərbaycanlının əsir düşməsinə imkan verməyərək, son gülləsinə qədər vuruşub və qəhrəmancasına həlak olub. Onun bu şücaəti nəticəsində yüzlərlə azərbaycanlının həyatı xilas olub.

SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının leytenantı Oleq Babak SSRİ prezidentinin 1991-ci 17 sentyabr tarixli Fərmanı ilə ölümündən sonra "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır.

**Suallar:**

**1. Qarabağ ən qədim zamanlardan XVIII əsrin ortalarınadək.**

**2. Qarabağ XVIII əsrin ortalarından XX əsrin əvvəlinədək.**

**3. Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır.**

### Qarabağ ən qədim zamanlardan XVIII əsrin ortalarınadək

Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx, Tağlar düşərgəsi insanlarının yaşadığı ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay (1 milyon 200 min ildən artıq tarixə malikdir) mədəniyyətindən sonrakı Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir. Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" sözü ilk mənbələrdə hələ 1300 il bundan əvvəl (VII əsrdən) işlənmişdir. Azərbaycan dilində "qara" sözünün rəngdən başqa "qalın" və ya "böyük" kimi mənaları da vardır. Bu baxımdan, Qarabağ "böyük bağ" və ya "qalın bağ" mənalarını ifadə edir.

Azərbaycanın cənubunda qüdrətli Manna dövləti e. ə. IX-VI əsrlərdə meydana gəlmişdir. Qədim türk xalqlarının tarixində Manna ilk türk dövlətidir. Azərbaycanlıların dövlətçilik ənənəsinin tarixi Mannadan başlanır. Manna Assuriya və Urartu ilə mübarizədə müstəqilliyini qorumağa nail olmuş, Şimali Azərbaycan torpaqları, o cümlədən Qarabağ ərazisi Urartunun işğallarından kənarda qalmışdır. Makedoniyalı İsgəndər (e. ə. 336-323) Əhəməni dövlətini məğlub etdikdən sonra Azərbaycanın şimalında siyasi proseslər yeni mərhələyə qədəm qoydu. Makedoniyalı İsgəndərin imperiyası parçalandıqda Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövlətləri yarandı. Bütün Qarabağ ərazisi Albaniya dövlətinin tərkibinə daxil idi.

Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin süquta yetirilməsi ilə baş verir. IX-XIII əsrin əvvəlləri, xüsusilə Sacilər-Atabəylər-Şirvanşahlar dövrü bütün Cənubi Qafqazda Azərbaycanın qüdrətinin daha da artdığı bir dövr idi. Sacilər və Atabəylər faktik olaraq Azərbaycanın tarixi torpaqlarını siyasi cəhətdən birləşdirmişdilər. Monqolların birinci yürüşü zamanı (1220-1222) zəifləmiş Atabəylər dövlətinə son qoyan Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı zamanı (1225-1231) Qarabağ da onun hakimiyyəti altında idi. Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə (1231-1239) Qarabağ digər Azərbaycan torpaqları kimi Ali monqol xaqanlığının (1239-1256), sonra isə Hülakülər (Elxanilər) dövlətinin (1256-1357) tərkibinə idi. XV əsrdə Qarabağ Azərbaycan Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1501) dövlətlərinin tərkibində idi. Azərbaycan Səfəvi dövlətinin yaranması ilə (1501) bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlandı. XVI əsrin ortalarında Azərbaycan torpaqlarının vahid dövlət halında mərkəzləşdirilməsi başa çatdı. Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaradır ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyliyi idi. Qarabağ bəylərbəyliyinin tərkibinə Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşəddil əraziləri daxil idi.

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi. Bu dövrdə Gəncə-Qarabağ torpaqları əvvəlcə Osmanlı imperiyası tərkibinə olmuşdur. Həmin dövrdə (1727) Gəncə-Qarabağ əyalətinin əhalisi 122 min nəfər olmuş, onun 80,3 min nəfərini (66%) azərbaycanlılar, 37,8 min nəfərini (30.9%) ermənilər (qriqorianlaşmış və erməniləşmiş albanlar), 3,7 min nəfərini (3,1%) kürdlər təşkil etmişdir. Bəhs olunan dövrdə Rusiyanın fəal köməklik göstərdiyi qriqorianlaşmış albanlar siyasi cəhətdən fəallaşır. Digər tərəfdən, sonuncu Səfəvi hökmdarı III Abbası yıxaraq hakimiyyətə gələn Nadir şah Əfşar (1736-1747) onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyiliyinin türk-müsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirdi ki, bu amil də Qarabağın alban məliklərinin mövqeyini gücləndirdi və onların separatizminə təkan verdi. Nadir şah öldükdən sonra (1747) Azərbaycan ərazisində 20 xanlıq, 7 sultanlıqdan ibarət feodal dövlət qurumları yarandı. Bu xanlıqlardan biri Kür və Araz çayları arasında böyük əraziyə malik olan Qarabağ xanlığı oldu. Qarabağ xanlığının əsasını Cavanşirlər sülaləsinin Sarıcalı oymağından olan Pənah Əli xan qoydu.

### Qarabağ XVIII əsrin ortalarından XX əsrin əvvəlinədək

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən Rusiya imperiyası ciddi "Qafqaz siyasəti" yeridirdi.

1805-ci ildə Qarabağ xanı ilə rus imperatoru arasında "Kürəkçay" traktatı imzalandı. 11 maddədən ibarət "Andlı öhdəlik" adlanan bu traktat ilə Qarabağ xanlığı Rusiya imperiyasının himayəsinə qəbul edildi. Bundan sonra uzun müddət müstəqil Azərbaycan dövlətinin qurulmasına imkan verilmədi. "Kürəkçay"ın (1805-i il) ardınca Rusiya imperiyası ilə Qacarlar dövləti (İran) arasında bağlanan "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələsindən sonra Qarabağda erməniləşdirmə prosesi başlandı.

XIX əsrin əvvəllərində Rusiya imperiyasının Qafqazı ələ keçirmək üçün Osmanlı və Qacarlar dövləti ilə apardığı müharibə nəticəsində Azərbaycan torpaqları iki hissəyə bölündü. 1822-ci ildə Qarabağ xanlığı ləğv olunaraq yerinə eyni adlı - Qarabağ əyaləti yarandı. Rusiya imperiyası qədim Azərbaycan torpaqlarında bufer zona yaratmaq məqsədi ilə "erməni dövləti" qurmaq planını həyata keçirməyə başladı. Bu məqsədlə Osmanlı (Türkiyə) və Qacarlar dövləti (İran) ərazisində yaşayan 300 minə qədər erməni XIX əsrin birinci yarısında Azərbaycana köçürülmüş və İrəvan, Qarabağ, Naxçıvan, Zəngəzur, Dərələyəz, Ordubad, Vedibasar və digər ərazilərdə yerləşdirilmişdir.

Ermənilər 1905-ci ildən başlayaraq Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törətdilər. Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti Qarabağda daha faciəli şəkil aldı. Onlar Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək mifik "Böyük Ermənistan" dövləti yaratmağa cəhd göstərdilər. 1915-ci ildə Osmanlı dövlətinə qarşı qiyamlarda uğursuzluğa düçar olan ermənilər, əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirərək və çarizmin himayəsinə sığınaraq azərbaycanlılara qarşı soyqırımlarını davam etdirdilər. Əvvəlcə çar hökumətinin devrilməsi (1917, fevral), sonra isə Rusiyada bolşeviklərin hakimiyyəti ələ alması ilə (1917, oktyabr) Zaqafqaziyada yaranan anarxiya şəraitində - uzun tarixi dövr ərzində Rusiya ordusunda xidmət edən erməni silahlı dəstələri daşnak-bolşeviklərlə birləşərək azərbaycanlılara qarşı soyqırımın yeni, daha dəhşətli dövrünü başladılar. 1918-ci ilin martında Bakıda başlanan və bütün Azərbaycanı əhatə edən yeni kütləvi soyqırımları Azərbaycan xalqına çox ağır zərbə vurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə Azərbaycan tarixində yeni dövr başlandı. 1918-1920-ci illərdə Qarabağda soyqırım törədən erməni daşnakları Qarabağın qəzalarında kəndləri məhv edərək minlərlə azərbaycanlını öz doğma yurdlarından qovdular. Nuru Paşanın rəhbərliyi ilə Türk-İslam odusu Xosrov bəy Sultanovun başçılıq etdiyi müqavimət hərəkatı ilə birgə 1920-ci il iyun ayının əvvəllərində Şuşanı XI Qırmızı Ordunun silahlı dəstələrindən təmizləyə bilsə də, Qarabağa rus və erməni quldurlarına kömək məqsədilə gətirilmiş ordu hissələri iyunun 15-də Şuşada sovet hökumətini bərpa etdi. XX əsrin əvvəllərində Rusiya imperiyasının dağılmasından istifadə edərək Cənubi Qafqazda ilk cümhuriyyət quran Azərbaycana "Qızıl ordu" adı altında gələn rus-bolşevik ordusu Türkiyə ilə əlaqələrin yaranmasına imkan verməmək üçün onların arasında erməni dövləti yaratdı. Əzəli türk-oğuz torpaqları, əhalisinin dörddə üçü türk olan İrəvan və Naxçıvan torpaqlarında Ermənistan adlı dövlət yarandı, Zəngəzur və Göyçə də ona verildi. XX əsrdə Rusiyada çarizmin süqutu və sovet imperiyasının yaranması ilə meydana çıxan əlverişli şəraitdə ermənilər inzibati ərazi məsələsini qaldırdılar və "Dağlıq Qarabağ Muxtar Vilayəti" kimi nə tarixi, nə də sosial-iqtisadi əsası olmayan bir qurum yaratdılar (7 iyul 1923-cü il).

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə "aran" və "dağlıq" hissələrə bölünmüş və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdir. Bununla da, Azərbaycanın Qarabağ bölgəsi münaqişə yuvasına çevrildi.

### Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır.

Sovetlər dövründə Qarabağın Ermənistana birləşdirilməsi üçün DQMV-də gizli işlər aparan ermənilər və ermənipərəstlər "Türksüz Ermənistan" yaratmaq ideyası ilə 1948-1953-cü illərdə minlərlə azərbaycanlı ailəsini etnik təmizləmə aparmaq məqsədilə öz ata-baba yurdları Qərbi Azərbaycandan (indiki Ermənistan) deportasiya edərək dəhşətli faciələr törətmişlər.

1960-1970-ci illərdə ermənilər Qarabağın Ermənistana birləşdirilməsi üçün gizli işlər apardığı dövrdə mühüm dövlət vəzifələrində işləyən Ulu Öndər Heydər Əliyev bunun qarşısının alınması üçün bir sıra tədbirlərin görülməsinə nail oldu. Azərbaycan Kommunist Partiyası (KP) Mərkəzi Komitənin (MK) birinci katibi seçildikdən sonra Ulu Öndər Heydər Əliyev erməni separatçılarının mənfur niyyətlərinin qarşısını almaq məqsədilə "DQMV"-nin iqtisadi inkişafı və əhalisinin sosial şəraitini yaxşılaşdırmaq üçün müəyyən tədbirlər həyata keçirərək onlara bəhanə yeri qoymadı. Bu da erməni ekstremistlərinin gizli planlarının və niyyətlərinin puça çıxmasına səbəb oldu. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında həyata keçirilmiş tədbirlər nəticəsində Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1973-cü ildə Xankəndidə Azərbaycan Pedaqoji İnstitutun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolu xətti çəkildi. Beləliklə, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti erməni separatizminin canlanmasına imkan vermədi.

1988-ci ildə erməni ideoloqları "dənizdən-dənizə böyük Ermənistan" uydurmasını yenidən ortaya atmaqla Qarabağda Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürüldü. Dünya ölkələrindəki erməni lobbisinin, dini mərkəzlərinin və bəzi iri dövlətlərin irticaçı qüvvələrinin maddi və mənəvi dəstəyi ilə Ermənistan adlandırılan qədim oğuz-türk yurdu olan Qərbi Azərbaycanda azərbaycanlılara məxsus kəndlərin və qəsəbələrin dağıdılması prosesi başlandı, yüzlərlə günahsız azərbaycanlı öldürüldü, 100 minlərlə soydaşımız öz tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldu. Moskvanın planı əsasında 1989-cu ildə DQMV-də "Xüsusi İdarəçilik Komitəsi" yaradıldı və bununla da "DQMV"-nin Azərbaycanla əlaqələri kəsildi. Silahlandırılmış erməni quldur dəstələri Qarabağ və ona bitişik ərazilərdən yerli azərbaycanlı əhalini öz doğma yurd-yuvasından çıxardı. Ermənistanın hərbi müdaxiləsi ilə respublika ərazisinin 20 faizi - Qarabağ və ona bitişik yeddi rayon (Xankəndi, Xocalı, Şuşa, Xocavənd, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan), həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Sədərək rayonunun isə 1 kəndi havadarlarının köməyi ilə Ermənistan hərbi qüvvələri tərəfindən işğal edildi.

12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olunduqdan sonra da Ermənistan mənfur xislətindən əl çəkməyərək Azərbaycan Respublikasına qarşı ərazi iddialarını davam etdirmişdir. Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunu bir daha sübut etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasında "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına cavab verib: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2020-ci ilin sentyabr ayında BMT-nin tribunasından Ermənistanın faşist siyasətini bütün dünyaya, BMT-yə, Minsk qrupuna çatdırdı.

2020-ci ilin sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın Zəfəri ilə başa çatdı. Haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Müzəffər Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, ordumuzun şücaəti, qəhrəmanlığı və ordu ilə xalqın birliyi hesabına qazandıq".

Dünya azərbaycanlılar fəxr edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı ordusu əzəli və tarixi torpaqlarımızı yağı düşməndən azad edərək, xalqımıza qələbə sevincini yaşatdı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Bizi heyrətləndirdiniz!"

Dünyəvi proseslər dövlətlərarası siyasi münasibətlərlə məhdudlaşmır, bu proseslər mədəniyyətlərarası münasibətləri də əhatələyir. Son on illiklərdə müstəqilliyini bərpa etmiş dövlətlər də belə proseslərin müstəqil iştirakçısı olur.

Müstəqil Azərbaycanın iştirak etdiyi "Dəniz Kuboku", "Tank biatlonu" və s. kimi beynəlxalq hərbi oyunlar iştirakçı dövlətlərin müvafiq qurumunun döyüş hazırlığının səviyyəsini müəyyənləşdirməyə, digər beynəlxalq hərbi tədbirlər ordunun timsalında mədəniyyətlər arasında münasibətlərin daha da möhkəmlənməsinə yönəldilib. Belə tədbirlər qardaşlaşan (qardaşlaşmış) xalqların mədəniyyətlərinin təbliğində və öyrənilməsində əhəmiyyətli olub, indi də belədir. Bu ilin iyulunda Qazaxıstanın paytaxtı Astana şəhərinin 25 illiyinə həsr olunan "Astana - mədəniyyət körpüsü" I beynəlxalq hərbi musiqi festivalı da bu mahiyyətin təzahürüdür.





Festival təkcə yarışma deyil, həm də mədəniyyətlərin yaxınlaşması vasitələrindəndir. Min illərdi mədəniyyətlər bir-birinə inteqrasiya olunmaqla inkişaf edir. Bu baxımdan Azərbaycan musiqisi həmişə dünyanın diqqətində olub - maraqla dinlənilib, sevilib, öyrənilib...

Bu festivalda Azərbaycanı Müdafiə Nazirliyinin zabiti polkovnik Elvin Əzizovun rəhbərliyi ilə Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestri, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri - Əməkdar artist Cahangir Qurbanov, Vüsal Ağayev, Mətləb Ağayev, oğlanlardan ibarət rəqs qrupu, Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrin solisti Günay Qasımova və başqaları təmsil edib.

Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestri irili-xırdalı bütün arenalarda məsuliyyətlə çıxış edib. Bu, Azərbaycan dövlətçiliyinə, Azərbaycan musiqisinə, hərbi şərəfə sədaqət kimi təzahür edib. Kollektiv bu festival ərəfəsində də ciddi məşqlər edib, təqdim ediləcək bir neçə konsert proqramının və sıra xoreoqrafiyasının bütün detalları nəzərə alınıb: ifa, orkestrin müşayiəti, xoreoqrafiya, bunların vəhdəti. Festivalda qazanılan uğur iştirakçıların istedadının bu səviyyədə məsuliyyətlə tamamlanmasının nəticəsidir, şübhəsiz. Ən başlıcası, Azərbaycan musiqisi! Cazın muğamla qoşa təqdimi! Ecazkar bəstələr! Ecazkar ifalar! Və ecazkar diyarın musiqi kollektivi!..

- Onların ifalarından qürurlandıq. Bizi bir məqam da qürurlandırdı: Rusiyanın Hərbi Orkestrinin təqdim etdiyi iki mahnının müəllifi - bəstəkarı Müslüm Maqomayev idi!, - polkovnik-leytenant Fariz Məmmədzadə belə dedi.

Bir məqamı da xatırlayırıq: Festivalda iştirak edən iki qadın ifaçıdan biri Azərbaycan idi! Əlahiddə Nümunəvi Orkestrin solisti Günay Qasımova. Onun da ifası sürəkli alqışlarla qarşılanıb. Yola salma mərasimində Qazaxıstan respublikası müdafiə nazirliyinin məsul zabiti onu böyük ehtiramla, Azərbaycana sevgisinin bir hissəsi kimi uğurlayıb...

Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin rəisi və dirijoru polkovnik-leytenant Fariz Məmmədzadə bu festivalı son illərin ən maraqlı, yaddaqalan musiqi tədbiri kimi dəyərləndirdi. Yeri gəlmişkən, bu orkestr Türkiyədə və Rusiyada keçirilmiş analoji festivallarda da iştirak edib. 2019-cu ildə Rusiyada keçirilən festival Azərbaycan musiqisinin qüdrətini, azərbaycanlı musiqiçilərin peşəkarlığını təsdiqləmişdi, musiqişünaslar, peşəkar musiqiçilər Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin çıxışını yüksək dəyərləndirmişdi. Orkestrin 2021-ci ildə Türkiyənin Bursa şəhərində çıxışı da musiqimizin ecazkarlığının sübutu olmuşdu...



"Astana - mədəniyyət körpüsü" I beynəlxalq hərbi musiqi festivalında səkkiz dövlətdən hərbi orkestr iştirak edib. Təşkilatçı dövlət olaraq Qazaxıstanı 3 kollektiv təmsil edib. Festivalın ilk günündə hər kollektivə proqramını təqdim etməsi üçün 20 dəqiqə vaxt müəyyənləşdirilib. Polkovnik-leytenant Fariz Məmmədzadə dedi ki, yüksək təşkilatçılığı ilə səciyyəvi olan bu festivalda 7 musiqi nömrəsi təqdim etdik. Respublikanın əməkdar artisti Cahangir Qurbanov "Odlar yurdu Azərbaycan" və "Gözümün qarası", Günay Qasımova "Həyat bizimdir", Mətləb Ağayev "Mavi əbədilik" (Müslüm Maqomayev), Vüsal Ağayev "İncə bellim", Cəlal Kərimov "Azərbaycan" (M.Maqomayev) mahnılarını ifa etdilər. "Gözümün qarası" qazax mahnısını qazax dilində, "Mavi əbədilik" rus dilində ifa edildi. Orkestrin təqdimatında milli musiqi alətimiz zurnanın solosu ilə Üzeyir Hacıbəylinin "Cəngi"si, "İgidlər" rəqsi tamaşaçıları heyran etdi. Rəqslərin quruluşu, plastikası, sinxronluğu, bunları birləşdirən azərbaycançılıq qaynarlığı bir daha təsdiqlədi ki, Azərbaycan musiqisi dünyəvi ehtiram ünvanıdır.

Polkovnik-leytenant Fariz Məmmədzadə onu da dedi ki, bu festival iştirakçı dövlətlərin xalqlarının musiqisinin vəhdətinin bölünməzliyi arenası idi. 500 nəfərdən çox ifaçının iştirakı ilə birləşmiş orkestrlər mayor Almaz İbrahimovun dirijorluğu ilə Qazaxıstanın milli marşını - dövlət himnini ifa etdi. Necə deyərlər, tədbirə görə minnətdarlıq kimi. Onda duyğulananlardan biri də mən oldum: Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin üzvləri uzaq Qazaxıstanda digər dövlətlərin musiqiçiləri ilə "nəfəs-nəfəsə" möhtəşəm bir marşı böyük məharətlə ifa edirdi!

- Amfiteatr formalı "Bəndmarafon" möhtəşəm arenanın dörd tərəfi su idi, çay kənarında düzəldilmiş bu möhtəşəmlik festivala amulet də hesab edilə bilərdi. 4 mindən çox tamaşaçının ruhunu oxşamaq, Azərbaycan musiqisini tanıyanlara bir daha sevdirmək, tanımayanlara tanıtmaq məsuliyyəti ilə çıxış etdik. Alqışlar təsdiqlədi ki, istəyimiz gerçəkləşib, - polkovnik-leytenant Fariz Məmmədzadə belə dedi...

Bu arenada çıxış həm də rəmz kimi qəbul edilməli idi: su əhatəsində çıxış da su kimi duru niyyətlərə uğur gətirəcək. Gətirdi də...

"Xan-Şatırda" da, festivalın bağlanış məkanı - "Barıs-Arenada" da tamaşaçılara eyni ovqat yaşanılıb. On mindən çox tamaşaçı Azərbaycan musiqisini Azərbaycanın adına layiq alqışlayıb. Bir zamanlar Vaqif Mustafazadə cazla muğamı sintez etmişdi, dünyanın musiqi biliciləri bundan müqayisəyəgəlməz dərəcədə heyrətlənmişdi. Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestri bu festivalda iştirakçıların da, tamaşaçıların da ruhunu illər sonra belə bir məqamla oxşaya bildi.

Festivallarda uğuru şərtləndirən amillərdən biri də nəyin necə təqdim edilməsidi; rəmz baxımdan təqdim olunan musiqinin boyu digərlərindən seçilmirsə, münsif, tamaşaçı rəğbəti də olmur. "Astana - mədəniyyət körpüsü" I beynəlxalq hərbi musiqi festivalında gerçəkliyi bu tezis də təsdiqləyib.

Dövlət olaraq Azərbaycanın, xalq olaraq azərbaycanlıların həyat, yaşam fəlsəfəsinin - mübarizliyinin, qətiyyətinin, dönməzliyinin musiqi ifadəsi olan "Cəngi" (Üzeyir Hacıbəyli) hər üç arenada tamaşaçılara bir səmavi mətləb də yaşadıb: Bu, Azərbaycandır! "Cəngi"nin partiturası Astanada da ifaçıların, ümumilikdə orkestrin duyumu ilə səsləndiyinə görə arena (arenalar) minlərin heyrətinə darlıq edib. "Astana - mədəniyyət körpüsü" I beynəlxalq hərbi musiqi festivalında da təsdiqlənib ki, mədəniyyət bir festival miqyasında da tanıtmağa, heyrətləndirməyə qadirdir!..

Qazaxıstan Müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkov Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinə kubok təqdim edib. Polkovnik-leytenant Fariz Məmmədzadə bu kuboku Azərbaycan musiqisinə verilən kubok kimi qəbul edib...

Festivalın gedişində də, festivalın bağlanış mərasimindən sonra da iştirakçı hərbi orkestrlərin dirijorları Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin çıxışından məmnun olduqlarını bildiriblər. Rusiyanı təmsil edən Sankt-Peterburq dairəsi Hərbi Orkestrlərinin xidmət rəisi polkovnik-leytenant (podpolkovnik) Pavel Qertnes fikrini "Məni və bizi heyrətləndirdiniz!" kimi ifadə edib. Dirijorun dediklərini festivalda iştirak edənlərin hamısının fikri hesab etmək günah deyil...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Ukraynalı pilotlar Rumıniya və Danimarkada təlim keçəcəklər



Ağ Ev Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi gündəlik mətbuat konfransında jurnalistlərin suallarını cavablandırıb.

Ukraynalı pilotların Rumıniya və Danimarkada "F-16" döyüş təyyarələri üçün təlim keçəcəyini qeyd edən Kirbi, təlim yerləri və təqvim üzərində hələ də çalışdıqlarını bildirib.

C.Kirbi təlim üçün başqa yerlərin də ön plana çıxa biləcəyini vurğulayıb.

Böyük Britaniyanın ukraynalı pilotların təyyarələri idarə edə bilməsi üçün dil təhsilinə başladığını ifadə edən Kirbi, təlim məsələsində mümkün qədər tez hərəkət etmək istədiklərini qeyd edib.

### Gürcüstan Dövlət Təhlükəsizliyi Xidməti İŞİD-in iki üzvünü həbs edib



Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Terrorla Mübarizə Mərkəzi İŞİD-in iki üzvünü həbs edib.

Bu barədə Gürcüstan DTX məlumat yayıb.

Bildirilir ki, DTX-nin Terrorla Mübarizə Mərkəzi Gürcüstanın iki rayonunda xüsusi əməliyyat-axtarış tədbirləri həyata keçirib. Nəticədə terror cinayəti ilə bağlı aparılan istintaq tədbirləri çərçivəsində iki nəfər Gürcüstan vətəndaşı saxlanılıb.

Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində üzərində terror təşkilatının rəmzləri olan bayraqlar və müxtəlif növ elektron daşıyıcılar aşkarlanıb. Eyni zamanda, saxlanılan şəxslərin yaşayış yerlərindən döyüş sursatı, partlayıcı qurğular və partlayıcı götürülüb.

### Qazaxıstan "Anka" PUA-sının sınaq istismarına hazırlaşır



Qazaxıstanın Cambul vilayətində Türkiyənin "Anka" pilotsuz uçuş aparatı sınaqdan keçirilib, bundan sonra onun sınaq istismarı başlayacaq.

Qazaxıstan Silahlı Qüvvələrinin "Sarbaz" nəşrinin məlumatına görə, "Anka" PUA-sının 2023-cü ilin avqust ayına nəzərdə tutulan sınaq istismarı 2024-cü ilin martınadək davam edəcək.

Uçuş testləri respublikanın hərbi hissələrindən birinin texniki mühəndisləri tərəfindən PUA-nın istehsalçısı - "Turkish Aerospace Industries" kompaniyasının nümayəndələrinin iştirakı ilə keçirilir.

Bu il mayın 10-da Ankarada "Kazakhstan Engineering" və "Turkish Aerospace" kompaniyaları arasında hərbi-texniki əməkdaşlığa dair memorandum imzalanıb. Sənədə əsasən Qazaxıstanda "Anka" PUA-larının istehsalı və texniki xidməti təşkil olunacaq.

"Anka" pilotsuz uçuş aparatı 350 kiloqram yüklə 9,1 min metr yüksəkliyə qalxa, 30 saata qədər havada qala və saatda 200 kilometr sürətlə uça bilən döyüş PUA-sıdır.

### ABŞ Ukraynaya yeni hərbi yardım paketini açıqlayıb



ABŞ Müdafiə Nazirliyi ölkənin Ukraynaya 400 milyon dollarlıq yeni hərbi yardım paketi təqdim edəcəyini açıqlayıb.

Bu barədə ölkənin Müdafiə Nazirliyinin saytında bildirilib.

Hərbi yardım paketinə hava hücumundan müdafiə, artilleriya və döyüş sursatları, zirehli maşınlar, tank əleyhinə silahlar və digər avadanlıqlar daxildir.

**AZƏRTAC-ın materialları əsasında**

*Nümunəvi xidmət*

# O da qaliblər sırasında olub

*Vətənə xidmət etməyi özünə borc bilən oğullar İkinci Qarabağ müharibəsində möhtəşəm Qələbə qazandılar. Onların bu Zəfəri ilə torpaqlarımız işğaldan azad olundu.*



Gəncə şəhərində anadan olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rəşad Məhərrəmov da qalib hərbçilərin sırasında idi.

Rəşadın atası Elşad Məhərrəmov da Birinci Qarabağ müharibəsində iştirak edib. O, kiçik yaşlarından ailədə vətənpərvərlik ruhunda böyüyüb.

Rəşad Gəncə şəhəri 7 saylı tam orta məktəbdə təhsil alıb. Məktəb illərində hərb tarixinə böyük maraq göstərib. Torpaqlarımızın işğal altında olması onu da narahat edib. Həmişə düşünüb ki, böyük sərkərdələrin, qəhrəmanların Vətəni olan Azərbaycan torpaqları işğalda qala bilməz. Təhsilini bitirib, "N" hərbi hissəsində xidmətə başlayıb. Hərbi hissədə nümunəvi əsgər kimi tanınıb, nizamnamələrin tələblərinə ciddi əməl edib. Müddətli həqiqi hərbi xidmətdən sonra ordu sıralarında qalıb, xidmətini davam etdirmək qərarına gəlib. Valideynləri onun istəyinə dəstək olublar. "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nu keçib. Kurs müddətində seçdiyi ixtisas üzrə təcrübəli, peşəkar zabitlərdən hərb sənətinin incəliklərini öyrənərək hərbi xidmətini davam etdirib.

Kiçik çavuş Rəşad Məhərrəmov deyir:

- Vətən torpaqlarının işğal altında olması məni də narahat edirdi. Ali Baş Komandanın döyüş əmri verəcəyi günü səbirsizliklə gözləyirdim. 2020-ci il sentyabrın 27-də verilən döyüş əmri ilə biz də döyüşlərə qatıldıq. Torpaqlarımızın işğaldan azad olunması uğrunda böyük ruh yüksəkliyi və əzmlə döyüşdük. Vətən müharibəsi Zəfərlə başa çatdı. Bu Zəfəri qazananların sırasında olmağımdan böyük qürur hissi keçirirəm. Mən də, silahdaşlarım da Vətənə şərəfli xidmətimizi uğurla davam etdiririk.

Kiçik çavuş Rəşad Məhərrəmovun xidmət etdiyi hərbi hissə Vətən müharibəsində şərəfli döyüş yolu keçib, döyüş tapşırıqlarını fədakarlıqla, rəşadətlə yerinə yetirib. Şəxsi heyət Füzuli, Ağdam, Xocavənd, Şuşa döyüşlərində qəhrəmanlıqlar göstərib.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rəşad Məhərrəmov "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Kiçik çavuş Rəşad Məhərrəmov da Vətəninə, elobasına şərəf və ləyaqətlə xidmət edən hərbi qulluqçuların davamçılarındandır.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Peşəkar boksçumuz Nizami Məmmədov "Heydər Əliyev" kəmərinə sahib olub



İstanbulda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş peşəkar boks gecəsi keçirilib.

Turnirdə ölkəmizi ağır çəki dərəcəsində təmsil edən Nizami Məmmədov uğurla çıxış edib. Türk Orhan Namlını ikinci raundda məğlub edən təmsilçimiz peşəkar boksda növbəti qələbəsini qazanıb və "Heydər Əliyev" kəmərinin sahibi olub.

Xatırladaq ki, görüş 4 raunddan ibarət olub.

## Mariya Stadnik Polşada çempion oldu



Polşanın paytaxtı Varşavada güləş üzrə "Poland Open" turniri davam edir.

Yarışın 2-ci günündə bir güləşçimiz mübarizə aparıb.

Belə ki, Mariya Stadnik (50 kq) gözlənildiyi kimi, favorit imicini doğruldub. Dünya qadın güləşinin canlı əfsanəsi finaladək kanadalı Keti Dutçaka, polşalı Amanda Tomçikə və Kanadanın digər təmsilçisi Madison Parksa "tuş"la qalib gəlib. Həlledici görüşdə təcrübəli polşalı güləşçi Anna Lukasyakla qarşılaşan Stadnik 7:0 hesablı qələbə ilə "Poland Open" turnirində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Cüdoçularımız XVII Avropa Gənclər Olimpiya Festivalında bürünc medal qazanıblar



İyulun 25-də Sloveniyanın Maribor şəhərində keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalının cüdo yarışları start götürüb.

Yarışın ilk günündə qızlar və oğlanlar arasında 3 çəki dərəcəsində 3 cüdoçumuz medallar uğrunda mübarizə aparıb.

Oğlanlar arasında -50 kiloqram çəkidə Nihad Məmişov və -55 kiloqram çəkidə Ayxan Mirzəzadə, qızlar arasında isə -44 kiloqram çəkidə Məryəm Bayramzadə güclərini sınayıblar.

Yarışda Nihad Məmişov və Ayxan Mirzəzadə bürünc medal əldə ediblər.

## Azərbaycan-Avstriya oyunu Tofiq Bəhramov adına Respublika Stadionunda təşkil olunacaq



Futbol üzrə Azərbaycan milli komandasının "Avro-2024"ün seçmə mərhələsi çərçivəsində Avstriya yığmasına qarşı keçirəcəyi oyunun stadionu müəyyənləşib.

Azərbaycan - Avstriya oyunu oktyabrın 16-da saat 20:00-da Tofiq Bəhramov adına Respublika Stadionunda təşkil olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Kursant düşüncələri



Müstəqil həyata qədəm qoyan hər yeniyetmə müxtəlif seçimlərlə üzləşir. Seçimlərin bizim gələcək həyatımızda, iş karyeramızda, cəmiyyətimizə yararlı vətəndaş kimi formalaşmağımızda mühüm əhəmiyyəti olur. Bu seçimlər arasında ən əsaslarından biri peşə seçimidir ki, böyük məsuliyyət tələb edir. Atalar yaxşı deyib: "Yüz ölç, bir biç". Bundan savayı, dahi yazıçımız Nizami Gəncəvinin

*Bir elmi öyrənmək*
*istədikdə sən,*
*Çalış ki, hər şeyi*
*kamil biləsən.*
*Kamil bir palançı*
*olsa da insan,*
*Yaxşıdır yarımçıq*
*papaqçılıqdan*

misralarına istinadən deyə bilərəm ki, həyat yolunu müəyyənləşdirən zaman hamı öz sevdiyi, öhdəsindən gələ biləcəyi bir ixtisası seçməlidir. Bu seçimimizə isə iki amil təsir edir. Elə şagirdlər olur ki, hansı fənləri yaxşı mənimsəyə bilirsə, fikri ona uyğun peşələrə yönəlir. Bəzi insanların isə qəlbində hansısa bir peşəyə sevgi olur. Valideynlərinin, ya da hansısa yaxın qohumunun, tanıdığının çalışdığı bir peşəyə olan rəğbəti onu istiqamətləndirir. Mən də bu gənclərdən idim ki, qəlbimdə müqəddəs bir peşəyə yiyələnmək arzusu ilə böyüyürdüm.

Hələ orta məktəbdə oxuyarkən artıq həyat yolumu müəyyənləşdirmişdim. O zamandan bu seçimin gələcəkdə mənim üçün yaxşı olacağını və bu sahədə müvəffəqiyyətlər qazanacağıma əmin idim. Balaca ürəyimə böyük sevgi hakim olmuşdu. Hərbi formaya olan bu sevgim gələcək arzularımı formalaşdırmışdı. Mən zabit olmaq, Azərbaycan Ordusunun sıralarında xidmət etmək istəyimi qətiləşdirmişdim. Bu sevgim, arzum isə boşuna yaranmamışdı. Dayım da zabit olub. Birinci Qarabağ müharibəsi döyüşlərində iştirak edərək Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalıb. Mən də "Şəhidlər heç vaxt ölmür, xatirələrimizdə daim yaşayır" sözlərini çox eşitmişəm. Bu, həqiqətən də belədir. Dayımın şəhid olmasından illər sonra dünyaya gəlmişəm. Kəndimizdə, evimizdə, qohumlar arasında onun haqqında o qədər danışıblar ki, sanki aramızdadır kimi hiss etmişəm. Həmişə onun haqqında danışanların necə fəxr hissi keçirdiklərini görürdüm. Onlar dayımın vətənpərvər, ləyaqətli, öz Vətəninə, torpağına bağlı biri olduğundan söz açardılar. Həmçinin hərbçi peşəsinin ən şərəfli peşə olduğunu, Vətəni qorumağın müqəddəs vəzifə olduğunu, dayımın da bu peşəyə ürəkdən bağlı olduğunu qeyd edirdilər. Mən də bunları eşitdikcə bu peşəyə olan sevgim gündən-günə artırdı. Artıq valideynlərimin də razılığı və dəstəyi ilə belə şərəfli yolun izindən gedə bilmək üçün Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olmaq qərarına gəlmişdim. İmtahanlardan uğurla keçərək arzuma çatmaq üçün ilk addımımı atdım. Tədris ili başlayanda artıq kursant formasında sırada dayanmışdım. Çox fərqli hislər keçirirdim, sevincimin həddi-hüdudu yox idi. Sanki, dayım da məni izləyib qürurlanırmış kimi gəlirdi mənə. Liseydə oxuyan zaman bunun necə ciddi, məsuliyyət tələb edən bir peşə olduğunu bir daha başa düşdüm. Əzmkarlıqla çalışır, dərslərimi həvəslə oxuyur, Heydər Əliyev adına Hərbi İnstituta qəbul olunacağım günü səbirsizliklə gözləyirdim. Çalışqanlığım və zəhmətim bəhrəsini verdi.

Kursant getdiyi hər yerdə, atdığı hər addımda hərbçi olduğunu xatırlayır və ona uyğun hərəkətlərini nizamlayır. Hər mühitdə digərlərindən fərqlənir. Başqa mühitlərdə olanda belə düşüncələri digər kursant yoldaşlarının yanında olur. Bir sözlə, seçdiyimiz yol çox qürurvericidir. Çünki insanlar bizi hərbi formada görəndə heyranlıqla baxırlar, bizimlə fəxr edirlər. Onda kursant da özü ilə fəxr edir, doğru peşə seçdiyinə əmin olur. Valideynlərimiz də qürurla övladlarının gələcəyin zabiti olacağından danışırlar.

Rəşadətli Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində düşmənə xalqımızın əzmini, ordunun gücünü, ata-babalarımızdan gələn döyüş təcrübəmizi göstərdi və zəfər qazandı. Bu qələbəyə görə isə son damla qanına qədər döyüşən, düşməndən qorxmayaraq qartal kimi üstünə şığıyan, bu müqəddəs yolda canından keçən şəhidlərimizə, Vətən torpağı uğrunda yaralananlara, hazırda xidmət edən şəxsi heyətə borcluyuq. Fəxr edirəm ki, mən də minlərlə gənc kimi həmin qəhrəmanlarımızın yolunun davamçısıyam. Onların dayandığı sıralarda qürurla dayanacaq, içdiyim Hərbi Anda sadiq qalacaq, layiqli hərbçilərdən olacağam.

Nəhayət, o gün gəldi və Heydər Əliyev adına Hərbi İnstituta qəbul oldum. Orada xarici ölkələrə seçim edərkən hərbi jurnalistika ixtisası diqqətimi çəkdi. İmtahanları uğurla verdikdən sonra Moskva şəhərində yerləşən Knyaz Aleksandr Nevski adına Hərbi Universitetə qəbul edildim. Mən həmin vaxtlar çox böyük sevinc hissi keçirirdim. Artıq 3 ildir ki, burada təhsilimi davam etdirirəm. Bu illər ərzində hərbi jurnalistika ixtisası ilə daha yaxından tanış oldum. Gələcəkdə uğurlu hərbi jurnalist olmaq üçün inamla çalışacağam.

**Kursant**
**Elgün ƏLƏSGƏRZADƏ**

Gizir Bədəlov Pünhan Bəhruz oğluna məxsus SQ № 0015997 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 422
Nüsxə 4760